| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **29.12.2000** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **435** |
| **ADI** | **“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2001, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 28)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **330.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **01.07.2011** |

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Qanunun tələblərinə müvafiq olaraq dövlət qulluqçuları üçün təminatlara dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 12-ci maddəsinə müvafiq olaraq inzibati vəzifələrin təsnifat toplusunun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 16-cı və 17-ci maddələrinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydalarının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 17-ci maddəsinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında ixtisas dərəcələrinin verilməsi qaydalarının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 17.5-ci maddəsinə müvafiq olaraq 3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı olan ixtisas dərəcələri alan dövlət qulluqçusuna verilən müvafiq vəsiqənin nümunəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun tələblərinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında dövlət qulluqçusu üçün minimum vəzifə maaşının məbləğini və dövlət qulluğu vəzifələrinin təsnifatına müvafiq surətdə icra hakimiyyəti orqanlarında dövlət qulluqçularının vəzifə maaşlarının miqdarına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 22.4-cü maddəsinə müvafiq olaraq qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi qaydasına, onun təyin edilməsi üçün əsasa və onun məbləğinə dair qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 22.5-ci maddəsinə müvafiq olaraq dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 22.7-ci maddəsinə müvafiq olaraq dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə xidmətin ikinci ilindən başlayaraq verilən əlavə haqqın və həmin haqqın hər iki ildən bir artırılan məbləğlərinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 22.8-ci maddəsinə müvafiq olaraq dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətlərinin icrasına görə əlavə haqqın təyin edilməsi qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

“Dövlət qulluqçularının pensiya təminatı haqqında” və “Dövlət qulluqçularının icbarı sığortası haqqında” Azərbaycan Respublikası qanunlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 23.3-cü maddəsinə müvafiq olaraq yaşına və ya əlilliyinə görə istefaya çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan müvafiq icra hakimiyyəti orqanlarında çalışmış dövlət qulluqçusuna müəyyən edilən ömürlük müavinətin miqdarına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 23.5-ci maddəsinə müvafiq olaraq dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun dul arvadına (ərinə), anasına (atasına), ölənin himayəsində olmuş və 22 yaşına çatmamış işləməyən qızına (oğluna) pensiyanın ödənilən faizinin miqdarına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;[1]

həmin Qanunun 24-cü maddəsinə müvafiq olaraq dövlət qulluqçularının mükafatlandırılmasının növlərinə və qaydalarına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 25.4-cü maddəsinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında dövlət qulluqçusuna münasibətdə tətbiq olunmuş intizam tənbeh tədbirindən şikayət verilməsi qaydasının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 27.3-cü maddəsinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmamasının qabaqcadan yoxlanılmasının qaydalarının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 28-ci maddəsinə müvafiq olaraq müvafiq icra hakimiyyəti orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə (o cümlədən müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına müvafiq qərarın qəbul edilməsi qaydaları da daxil olmaqla) qəbulun qaydalarının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 28.5-ci maddəsinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması və təsdiq edilməsi qaydalarının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 28.6-cı maddəsinə müvafiq olaraq sınaq müddəti ilə müvafiq icra hakimiyyəti orqanlarında dövlət qulluğuna qəbul kontraktının nümunəsinin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 28.7-ci maddəsinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında daimi dövlət qulluğuna qəbulu Azərbaycan Respublikasının adından təsdiq edən sənədin nümunəsinin layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 29.4-cü maddəsinə müvafiq olaraq icra hakimiyyəti orqanlarında inzibati vəzifələrin tutulması ilə bağlı dövlət orqanının rəhbəri dövlət qulluğunun idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda yaranmış fikir ayrılığının aradan qaldırılması qaydalarının layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 30.1-ci maddəsinə müvafiq olaraq dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün müddəti qısaldılmış iş vaxtı haqqında qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 30.2-ci maddəsinə müvafiq olaraq qulluq üçün zəruri olan hallarda iş vaxtı 5 saatdan çox artırılanda işlədiyi hər saata görə dövlət qulluqçusuna ödənilən əlavə haqqın məbləğlərinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbərinə tapşırılsın ki, iki ay müddətində:

Azərbaycan Respublikasının Dövlət Qulluğu İdarəetmə Şurasının Əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən Azərbaycan Respublikasının Dövlət Qulluğu İdarəetmə Şurasının 6 üzvünün namizədliyinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikasının Prezidentinin yanında müvafiq dövlət qulluğu idarəetmə orqanına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin, müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarının müvafiq dövlət qulluğu idarəetmə orqanlarına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

*3. Müəyyən edilsin ki:* [2]

*3.1. "Dövlət qulluğu haqqında' Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin ikinci cümləsində, 12.2-ci maddəsinin ikinci cümləsində, 15-1.3-cü, 15-2.3-cü maddələrində, 17.4-3-cü maddəsinin ikinci cümləsində, 17.5-ci maddəsində, 22.7-ci maddəsinin birinci cümləsində, 22.7-2-ci, 23.2-1-ci, 23.4-cü, 25.4-cü maddələrində, 27.3-cü maddəsinin ikinci cümləsində, 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-cü maddəsinin ikinci hissəsində, 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsinin ikinci cümləsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində və üçüncü hissəsində, 28.7-ci maddəsinin altıncı və səkkizinci cümlələrində, 28.8-1-ci maddəsində, 28.11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsinin üçüncü hissəsində, 28.13-cü maddəsinin birinci cümləsində, 28-1.1-ci, 28-1.3-cü maddələrində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci və ikinci hissələrində, 29.6-cı, 29.7-ci, 29.12-ci (ikinci halda) və 30-1.13-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;* [3]

*3.1-1. həmin Qanunun 5.2-ci maddəsinin ikinci cümləsində, 17.4-3-cü maddəsinin ikinci cümləsində, 22.7-ci maddəsinin birinci cümləsində və 23.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;* [4]

*3.2. həmin Qanunun 11.4-cü maddəsinin ikinci hissəsində, 21.6-cı maddəsinin birinci cümləsində, 22-1.8-ci maddəsində, 28.2-ci maddəsinin ikinci hissəsində, 28.3-cü maddəsinin ikinci cümləsində~~, 28.5-ci maddəsinin üçüncü cümləsində və 30-1.7-ci maddəsində~~ nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının, həmçinin 8.1.1-ci, 11.1.1.1-ci, 11.1.2.1-ci, 11.1.3.2-ci və 11.1.4.3-cü maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;* [5]

*3.2-1. həmin Qanunun 22.7-2-ci maddəsində, 28.5-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28.12-ci maddəsinin üçüncü hissəsində, 29.3-cü maddəsinin birinci hissəsinin üçüncü cümləsində və 30-1.13-cü maddəsində 'orqan (qurum)' dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;* [6]

*3.3. həmin Qanunun 2.5-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*~~3.4. həmin Qanunun 7.1-ci maddəsində və 25.10-cu maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;~~* [7]

*3.5. həmin Qanunun 8.1.1-ci, 11.1.1.1-ci, 11.1.2.2-ci, 11.1.3.3-cü və 11.1.4.2-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti, 8.1.1-ci, 11.1.1.1-ci, 11.1.2.2-ci (bölmə rəhbərlərinə münasibətdə) və 11.1.4.2-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini isə həmçinin Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirirlər.* [8]

*3.6. həmin Qanunun 8.1.3-cü maddəsində nəzərdə tutulmuş:*

*3.6.1. Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*3.6.2. müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası,*

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) və Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirirlər;*[9]

*3.7. həmin Qanunun 8.1.4-cü maddəsində nəzərdə tutulmuş:*

*3.7.1. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;*

*3.7.2. Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*3.8. həmin Qanunun 8.1.5-ci maddəsində nəzərdə tutulmuş:*

*3.8.1. müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) həyata keçirirlər;*

*3.8.2. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri həyata keçirirlər;*

*3.8.3. müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri və Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;*

*3.9. həmin Qanunun 8.1.6-cı maddəsində nəzərdə tutulmuş:*

*3.9.1. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;*

*3.9.2. müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri həyata keçirirlər;*

*3.9.3. müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri həyata keçirirlər;*

*3.10. həmin Qanunun 11.1.1.1-ci və 11.1.2.1-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur bölməsinin səlahiyyətlərini Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsi – Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi həyata keçirir;*

*3.11. həmin Qanunun 11.1.3.6-cı və 11.1.4.7-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;*

*3.12. həmin Qanunun 11.1.3.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;*

*3.13. həmin Qanunun 11.1.5.4-cü (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla), 11.1.7.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və 11.1.8.2-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*3.14. həmin Qanunun 11.1.6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*3.15. həmin Qanunun 11.1.6.4-cü və 11.1.7.3-cü maddələrində nəzərdə tutulmuş:*

*3.15.1. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;*

*3.15.2. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;*

*3.16. həmin Qanunun 11.1.7.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;*

*3.17. həmin Qanunun 11.1.8.1-ci maddəsində nəzərdə tutulmuş:*

*3.17.1. müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*

*3.17.2. müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar həyata keçirirlər;*

*3.17.3. müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar həyata keçirirlər;*

*3.17.4. müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin səlahiyyətlərini Azərbaycan Respublikası və Naxçıvan*

*Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri həyata keçirirlər;*

*3.18. həmin Qanunun 11.1.8.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının yanında olan orqanların səlahiyyətlərini yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri həyata keçirirlər;*

*3.19. həmin Qanunun 22-1.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasıdır;*

*3.20. həmin Qanunun 25.8-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini tabelik qaydasında yuxarı dövlət orqanı həyata keçirir;*

*3.21. həmin Qanunun 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-cü maddəsinin ikinci hissəsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28-1.1-ci maddəsində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci və ikinci hissələrində, 29.7-ci maddəsində nəzərdə tutulmuş qurum Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzidir;*[10]

*3.21-1. həmin Qanunun 28-1.3-cü maddəsində və 28.11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində 'orqan (qurum)' dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;*[11]

*3.22. həmin Qanunun 28.2-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;*

*3.22-1. həmin Qanunun 28.5-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;*[12]

*3.22-2. həmin Qanunun 28.8-1-ci maddəsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri nəzərdə tutulur;*

*3.22-3. həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirir;*

*3.22-4. həmin Qanunun 28.12-ci maddəsinin ikinci hissəsində (ikinci halda) və 29.3-cü maddəsinin birinci və ikinci hissələrinin birinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) həyata keçirirlər;*

*3.23. həmin Qanunun 28.12-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, 29.2-ci maddəsinin birinci hissəsinin birinci cümləsində, üçüncü və dördüncü hissələrində, 29.3-cü maddəsinin birinci və ikinci hissələrinin birinci cümlələrində (birinci halda) müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri həyata keçirirlər;*[13]

*3.23-1. həmin Qanunun 29-1-ci maddəsində nəzərdə tutulmuş qurum:* [14]

*3.23-1.1. mərkəzi icra hakimiyyəti orqanlarında, onların yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində, habelə mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə münasibətdə – həmin mərkəzi icra hakimiyyəti orqanlarında yaradılmış apelyasiya şuraları;*

*3.23-1.2. məhkəmə hakimiyyəti orqanlarının və Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının aparatlarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə münasibətdə – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində yaradılmış Apelyasiya Şurasıdır;*

*3.24. həmin Qanunun 29.12-ci (birinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;*

*3.25. həmin Qanunun 32-1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq dövlət orqanının səlahiyyətlərini:*

*3.25.1. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında və Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;*

*3.25.2. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində həmin mərkəzi icra hakimiyyəti orqanının rəhbəri;*

*3.25.3. Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında Azərbaycan Respublikasının ədliyyə naziri;*

*3.25.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri həyata keçirirlər;*

*3.26. bu Fərmanın 3.27-ci bəndində nəzərdə tutulmuş dövlət orqanları istisna olmaqla, digər dövlət orqanlarında dövlət qulluğunda olmanın yaş həddinə çatmış dövlət qulluqçusunu vəzifəyə təyin edən səlahiyyətli şəxs həmin dövlət qulluqçusunun müvafiq vəzifəyə təyin edilməsi barədə qərar qəbul etdikdə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 32-1.2-ci maddəsinə uyğun olaraq, həmin dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti uzadılmış hesab edilir;*

*3.27. mərkəzi icra hakimiyyəti orqanına aid sahədə dövlət qulluğunda olmanın yaş həddinə çatmış dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 32-1.2-ci maddəsinə uyğun olaraq dövlət qulluğunda olma müddəti həmin mərkəzi icra hakimiyyəti orqanının rəhbəri tərəfindən uzadılır;*

*3.28. bu Fərmanın 3.25-ci bəndində nəzərdə tutulmuş dövlət orqanları istisna olmaqla, inzibati vəzifələrin ali-*

*üçüncü təsnifatına aid vəzifələrdə dövlət qulluğu keçən dövlət qulluqçusunu vəzifəyə təyin edən səlahiyyətli şəxs həmin dövlət qulluqçusunun müvafiq vəzifəyə təyin edilməsi barədə qərar qəbul etdikdə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 32-1.3-cü maddəsində nəzərdə tutulmuş razılıq verilmiş hesab edilir;*

*3.29. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanunu qüvvəyə minənədək elan edilmiş müsabiqələrdə iştirak edərək dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilmiş şəxslər həmin siyahıda olduqları müddətdə dövlət orqanlarında analoji vakant vəzifəyə təyin edilə bilərlər. Həmin şəxslərə dövlət qulluğu vəzifəsinə təyin olunduğu gündən sertifikat verilir.*

4. Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Prokurorluğuna tövsiyə edilsin, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankına tapşırılsın ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsinlər.[15]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 29 dekabr 2000-ci il
435

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 avqust 2002-ci il tarixli 775 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 8, maddə 495**)
2. 28 dekabr 2005-ci il tarixli **342** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 29 dekabr 2005-ci il**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 12, maddə 1111** )
3. 26 dekabr 2007-ci il tarixli 691 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1241**)
4. 7 may 2008-ci il tarixli 752 nömrəli Azərbaycan Respublikasının Fərmanı **("Azərbaycan" qəzeti 14 may 2008-ci il, 103 Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 363)**
5. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80)**
6. 5 avqust 2017-ci il tarixli **1571** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1518)**
7. 5 fevral 2018-ci il tarixli **1806** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 7 fevral 2018-ci il, 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 170 )**
8. 12 noyabr 2018-ci il tarixli **336** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 noyabr 2018-ci il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2249)**
9. 25 yanvar 2019-cu il tarixli **485** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 27 yanvar 2019-cu il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 75)**
10. 28 avqust 2019-cu il tarixli **821** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1403)**
11. 31 yanvar 2020-ci il tarixli **918** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 1 fevral 2020-ci il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 7)**
12. 7 iyul 2020-ci il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 8 iyul 2020-ci il, 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 871)**
13. 12 noyabr 2020-ci il tarixli **1179** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, 238 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1348)**
14. 26 dekabr 2020-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 30 dekabr 2020-ci il, 276 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1480)**
15. 14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732)**
16. 9 avqust 2021-ci il tarixli **1419** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 12 avqust 2020-ci il, 167 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 911)**
17. 20 sentyabr 2021-ci il tarixli **1442** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 21 sentyabr 2021-ci il, 201 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 982)**
18. 5 aprel 2022-ci il tarixli **1642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69 )**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 avqust 2002-ci il tarixli 775 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 8, maddə 495**) ilə 1-ci bəndin on altıncı abzasında "25" rəqəmi "22" rəqəmi ilə əvəz edilmişdir.

[2] 28 dekabr 2005-ci il tarixli **342** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 29 dekabr 2005-ci il**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 12, maddə 1111** ) ilə 3-cü bəndin ikinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~həmin Qanunun 10.2-ci maddəsində nəzərdə tutulmuş «icra hakimiyyəti orqanlarının», 12.2-ci, 17.4-cü, 22.3-cü, 22.6-cı, 22.7-ci, 23.3-cü, 23.5-ci, 25.4-cü, 28.4-cü, 28.5-ci, 28.6-cı, 29.4-cü və 33.4.3-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini~~

~~Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.~~

5 fevral 2018-ci il tarixli **1806** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 7 fevral 2018-ci il, 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 170** ) ilə 3.1-ci bənddə "**maddəsində**" sözü "**, 15-1.3-cü və 15-2.3-cü maddələrində**" sözləri ilə əvəz edilmişdir.

5 avqust 2017-ci il tarixli **1571** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1518**) ilə 3-cü hissəyə yeni məzmunda üçüncü abzas əlavə edilmişdir və ikinci–dördüncü abzaslar, müvafiq olaraq, 3.1–3.3-cü bəndlər hesab edilmişdir.

28 dekabr 2005-ci il tarixli **342** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("**Azərbaycan" qəzeti, 29 dekabr 2005-ci il**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 12, maddə 1111** ) ilə 3-cü bəndə üçüncü abzas əlavə edilmişdir.

26 dekabr 2007-ci il tarixli 691 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1241**) ilə 3-cü bəndinin üçüncü abzasında **"29.4-cü maddəsində"** sözləri **"29.4-cü və 30-1.7-ci maddələrində"** sözləri ilə əvəz edilmişdir.

7 may 2008-ci il tarixli 752 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 14 may 2008-ci il, 103, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 5, maddə 363**) ilə 3-cü bəndinin üçüncü abzasında "**29.4-cü**" sözü "**29.4-cü, 29.6-cı, 29.7-ci** " sözləri ilə əvəz edilmişdir.

12 noyabr 2018-ci il tarixli **336** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 noyabr 2018-ci il, 255, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2249**) ilə 3.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.4-cü bənd əlavə edilmişdir.

25 yanvar 2019-cu il tarixli **485** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 27 yanvar 2019-cu il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 75**) ilə 3-cü hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~3. Müəyyən edilsin ki:~~
~~*3.1.* Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 12.2-ci, *15-1.3-cü və 15-2.3-cü maddələrində* nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;~~
~~*3.2. həmin Qanunun 11.1.8.2-ci maddəsində birinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;*~~
~~*3.3.* həmin qanunun 29.4-cü, 29.6-cı, 29.7-ci və 30-1.7-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya həyata keçirir;~~
~~*3.4. həmin Qanunun 7.1-ci maddəsində və 25.10-cu maddəsinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.*~~

[3] 26 dekabr 2020-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 dekabr 2020-ci il, 276 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1480**) ilə 3.1-ci bəndə "**15-2.3-cü**," sözlərindən sonra "**maddələrində, 17.4-3-cü maddəsinin ikinci cümləsində** ," sözləri əlavə edilmişdir və həmin bənddə "**və 29.12-ci (ikinci halda)**" sözləri **", 29.12-ci (ikinci halda) və 30-1.13-cü"** sözləri ilə əvəz edilmişdir.

14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə 3.1-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~*3.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsinin ikinci cümləsində, 15-1.3-cü, 15-2.3-cü, maddələrində, 17.4-3-cü maddəsinin ikinci cümləsində, 17.5-ci, 23.4-cü, 25.4-cü maddələrində, 27.3-cü maddəsinin ikinci cümləsində, 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-cü maddəsinin ikinci hissəsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində və üçüncü hissəsində, 28.7-ci maddəsinin altıncı və səkkizinci cümlələrində, 28.13-cü maddəsinin birinci cümləsində, 28-1.1-ci maddəsində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci hissəsində, 29.6-cı, 29.7-ci, 29.12-ci (ikinci halda) və 30-1.13-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*~~

9 avqust 2021-ci il tarixli **1419** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 avqust 2020-ci il, 167 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 911**) ilə 3.1-ci bəndə "**17.5-ci**," sözlərindən sonra "**23.2-1-ci,"** sözləri əlavə edilmişdir.

[4] 26 dekabr 2020-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 dekabr 2020-ci il, 276 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1480**) ilə yeni məzmunda 3.1-1-ci bənd əlavə edilmişdir.

14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə 3.1-1-ci bəndə "**Qanunun**" sözündən sonra "**5.2-ci maddəsinin ikinci cümləsində,**" sözləri və "**17.4-3-cü maddəsinin ikinci cümləsində"** sözlərindən sonra "**və 22.7-ci maddəsinin birinci cümləsində**" sözləri əlavə edilmişdir.

9 avqust 2021-ci il tarixli **1419** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 12 avqust 2020-ci il, 167 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 911**) ilə 3.1-1-ci bəndə "**cümləsində**" sözündən sonra "**və 23.2-1-ci maddəsində**" sözləri əlavə edilmişdir.

[5] 26 dekabr 2020-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 dekabr 2020-ci il, 276 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1480**) ilə 3.2-ci bənddən "**və 30-1.7-ci maddəsində** " sözləri çıxarılmışdır.

14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə 3.2-ci bənddən **", 28.5-ci maddəsinin üçüncü cümləsində**" sözləri çıxarılmışdır.

[6] 26 dekabr 2020-ci il tarixli **1218** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 30 dekabr 2020-ci il, 276 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1480**) ilə yeni məzmunda 3.2-1-ci bənd əlavə edilmişdir.

14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə 3.2-1-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~*3.2-1. həmin Qanunun 30-1.13-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;*~~

[7] 12 noyabr 2020-ci il tarixli **1179** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, 238 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1348**) ilə 3.4-cü bənd ləğv edilmişdir.

[8] 28 avqust 2019-cu il tarixli **821** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1403**) ilə 3.5-ci bəndi yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~*3.5. həmin Qanunun 8.1.1-ci, 11.1.1.1-ci, 11.1.2.2-ci, 11.1.3.3-cü və 11.1.4.2-ci maddələrində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti həyata keçirirlər;*~~

20 sentyabr 2021-ci il tarixli **1442** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 21 sentyabr 2021-ci il, 201 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 982**) ilə 3.5-ci bənddə "**Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti**" sözləri "**Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[9] 5 aprel 2022-ci il tarixli **1642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69**) ilə 3.6.2-ci yarımbəndə və 3.22-4-cü bəndə "**Komissiyası**" sözündən sonra "**, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi**" sözləri əlavə edilmişdir.

[10] 14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə 3.21-ci bənddə "**29.4-cü maddəsinin birinci hissəsində və** " sözləri "**29.4-cü maddəsinin birinci və ikinci hissələrində,** " sözləri ilə əvəz edilmişdir.

[11] 14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə yeni məzmunda 3.21-1-ci bənd əlavə edilmişdir.

[12] 14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə yeni məzmunda 3.22-1 – 3.22-4-cü bəndlər əlavə edilmişdir.

[13] 31 yanvar 2020-ci il tarixli **918** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 1 fevral 2020-ci il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 7**) ilə 3.23-cü bənddə "**yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, inzibati ərazi dairələri üzrə nümayəndəliklər və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər**" sözləri "**Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlar, yerli icra hakimiyyəti başçılarının yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri**" sözləri ilə əvəz edilmişdir.

14 iyul 2021-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 16 iyul 2021-ci il, 147 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 732**) ilə 3.23-cü bəndə "**28.12-ci maddəsinin** " sözlərindən sonra "**birinci hissəsinin**" sözləri və "**birinci cümlələrində**" sözlərindən sonra "**(birinci halda)**" sözləri əlavə edilmişdir.

[14] 7 iyul 2020-ci il tarixli **1091** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 iyul 2020-ci il, 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 871**) ilə yeni məzmunda 3.23-1-ci bənd əlavə edilmişdir.

[15] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 80**) ilə 4-cü bəndində "**Milli Bankına**" sözləri "**Mərkəzi Bankına**" sözləri ilə əvəz edilmişdir.